17 noyabr Milli Dirçəliş günüdür

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

№46 (1041) 15-22 noyabr 2018-ci il

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## Azərbaycan-Slovakiya münasibətləri ölkəmizin Avropa İttifaqı ilə əməkdaşlığının inkişafı baxımından önəmlidir

Noyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Slovakiya Respublikasının Baş naziri Peter Pelleqrini ilə təkbətək görüşü olub.

Dövlətimizin başçısı qeyd etmişdir ki, Peter Pelleqrininin Azərbaycana səfəri ikitərəfli münasibətlərimizin inkişafı üçün əlverişli imkan yaradır, həmçinin bu münasibətlər ölkəmizin Avropa İttifaqı ilə əməkdaşlığının inkişafı baxımından da önəmlidir. Dövlətimizin başçısı bu ilin iyulunda Azərbaycan ilə Avropa İttifaqı arasında Brüsseldə paraflanmış "Tərəfdaşlıq prioritetləri" sənədini Avropa İttifaqı tərəfindən Azərbaycanla əlaqələrə verilən önəmin göstəricisi kimi dəyərləndirmişdir.

Slovakiya Respublikasının Baş naziri Peter Pelleqrini ölkələrimiz arasında ikitərəfli münasibətlərə toxunaraq, bu səfəri zamanı Bakıda keçirilən Azərbaycan-Slovakiya biznes forumunun önəmini qeyd etmiş və bunun iqtisadi sahədə əməkdaşlığımızın genişlənməsi işinə öz töhfəsini verəcəyini vurğulamışdır.



* * * * *

Noyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Slovakiya Respublikasının Baş naziri Peter Pelleqrini ilə təkbətək görüşü başa çatdıqdan sonra danışıqlar geniş tərkibdə davam etdirilib.

Görüşdə çıxış edən Azərbaycan Prezidenti İlham ƏLİYEV demişdir:

-Münasibətlərimizin tarixində bu, Slovakiyanın Baş nazirinin ölkəmizə ilk səfəridir. Digər vacib fakt ondan ibarətdir ki, Baş nazir təyin olunmasından qısa müddət sonra Azərbaycanı ziyarət edir. Biz bunu hörmət, tərəfdaşlıq və Azərbaycana maraq əlaməti hesab edirik. Biz əməkdaşlığımızı inkişaf etdirmək istəyirik. Biz tərəfdaşlığın genişləndirilməsində böyük potensialı görürük və əminəm ki, səfər zamanı müzakirə olunan məsələlər gələcək tərəfdaşlıq üçün möhkəm zəmin yaradacaqdır.

İkitərəfli münasibətlərlə bağlı çoxlu işlər görülməlidir. Biznes dairələrinin bir araya toplaşması və gələcək planları müzakirə etməsi də bizi məmnun edir. Əlbəttə ki, biz siyasi, iqtisadi, nəqliyyat və digər sahələrdə əməkdaşlığımızı davam etdirəcəyik. Biz daşımalar sahəsində potensialı müzakirə etdik.

Əməkdaşlığımızın vacib hissəsi, həmçinin Azərbaycan-Avropa İttifaqı münasibətləridir. Bu münasibətlər yaxşı formadadır. Bu il biz "Tərəfdaşlıq prioritetləri" sənədini parafladıq və Azərbaycan ilə Avropa İttifaqı arasında bütün sahələri, o cümlədən siyasi, iqtisadi, sosial, nəqliyyat, enerji sahələrini əhatə edəcək yeni razılaşma üzrə danışıqların fəal mərhələsindəyik. Azərbaycan enerji təhlükəsizliyi sahəsində Avropa İttifaqı tərəfindən çox mühüm tərəfdaş hesab olunur. Bizim icra etdiyimiz layihələrin qitədə böyük miqyası var. Buna görə, cənab Baş nazir, əminəm ki, Sizin səfəriniz ölkələrimiz arasında münasibətlərin sürətli inkişafı üçün çox yaxşı imkanlar yaradacaq.

Slovakiya Respublikasının Baş naziri Peter Pelleqrini nümayəndə heyəti üzvlərinin Bakıda öz həmkarları ilə hökumətlərarası komissiyanın yaradılması, iqtisadi sahədə müqavilə-hüquq bazasının genişləndirilməsi ilə bağlı səmərəli danışıqlar apardıqlarını bildirmişdir.

Görüşdə beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, investisiya, təhsil, turizm sahələrində əlaqələrin perspektivləri müzakirə olunmuşdur. Söhbət zamanı Slovakiyanın Azərbaycanda səfirliyinin açılmasının ikitərəfli münasibətlərin inkişafı baxımından əhəmiyyəti qeyd olunmuşdur.

## İnnovativ həllərin tətbiqi dövlət siyasətimizin prioritetlərindəndir

Noyabrın 12-də Bakıda Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyindəki Elektron Hökumətin İnkişafı Mərkəzinin inzibati binasının açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Prezidentin hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi - şöbə müdiri Fuad Ələsgərov və Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev binada yaradılan şərait barədə məlumat verdilər.

Qeyd edək ki, Nərimanov rayonu, Atatürk prospekti 89 ünvanında yerləşən beşmərtəbəli inzibati binada "Elektron Hökumətin İnkişafı Mərkəzi" publik hüquqi şəxsin fəaliyyətinin yüksək səviyyədə təşkili üçün bütün şərait yaradılıb. Burada startaplara və innovasiyalara dəstək ekosisteminin elementləri olan "İNNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzi, həmçinin İT savadlılığının artırılması məqsədilə İT Təlim-Tədris Mərkəzi də fəaliyyət göstərəcək.

"İNNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzinin fəaliyyəti ilə tanış olan Prezident İlham Əliyevə məlumat verildi ki, "İNNOLAND" Azərbaycanda, eyni zamanda, onun hüdudlarından kənarda özəl sektorun inkişaf etdirilməsi, innovasiyanın təşviqi və startap hərəkatının genişləndirilməsi üçün yaradılan inkubasiya, akselerasiya və araşdırma mərkəzidir. İNNOLAND Kovörkinq, İnkubasiya, Akselerasiya və İT Təlim-Tədris Mərkəzindən ibarətdir. Buradakı "Kovörkinq" mərkəzi startaplar, proqramçılar, innovasiyalar sahəsində tək və ya kiçik komanda ilə işləyən şəxslər üçün sərfəli və bir çox imkanları özündə birləşdirən iş yeridir. "İNNOLAND"də fəaliyyət göstərəcək "Kovörkinq" mərkəzi həftənin 7 günü 24 saat giriş imkanına, yüksək sürətli internetə, vahid məlumat köşkünə, mentor dəstəyinə malikdir.

İT Təlim-Tədris Mərkəzi isə gənclərə proqramlaşdırma və informasiya texnologiyaları üzrə biliklərin öyrədildiyi, kodlaşdırma bacarıqlarının verildiyi məkandır. Mərkəzdə süni intellekt, robotlaşdırma və onları dəstəkləyən proqramlaşdırma dillərinə üstünlük verilir. Dərslər "bootcamp" formatında üç ay ərzində hər gün keçirilir. İnkubasiya dövründə startaplara ideyalarının formalaşdırılmasına kömək göstərilir. Bu müddətdə əvvəlcədən müəyyənləşdirilmiş istiqamətlər üzrə ildə 4 dəfə ideya müsabiqəsi elan olunur. Müvafiq meyarlara əsasən müsabiqəyə əvvəlcədən müəyyənləşdirilmiş say üzrə ideya qəbul edilir. İnkubasiya dövründə uğurla formalaşmış ideyaların ilkin versiyaları test edilməsi, prototiplərin hazırlanması üçün akselerasiya mərhələsinə keçirilir. Bu mərhələdə komandaya mütəmadi şəkildə mentor dəstəyi göstərilir. Mərkəzdə fəaliyyət göstərən startaplar İnkubasiya və Akselerasiya dövründə "İNNOLAND"in innovasiyalar və İKT sahəsində ümumi fəaliyyətindən də yararlanacaqlar.



Bildirildi ki, "Wattbooster" qurğusu elektrik enerjisinin faydalı iş əmsalını artırır, elektromaqnit sahəsinin hesabına daha çox enerji istehsal edir. Nəticədə elektrik avadanlıqlarının enerji sərfiyyatına qənaət olunur. Hələlik bu qurğu mobil operatorların antennalarının elektrik enerjisinin sərfiyyatının azaldılması üçün nəzərdə tutulub.

"Lia" adlı spinal qurğu onurğa sütununun vəziyyətinə nəzarət edir və insanda düzgün qamət yaradır. Mikrokontroller və iki sensordan ibarət olan, çiyindən asılan "Lia" minimum 3 həftədən sonra heç bir narahatlıq hissi doğurmadan onurğa sütununu düzəltməyə kömək edir. Sensor çiyinlərin vəziyyətini müəyyən edərək duruşun düzgünlüyünü yoxlayır. İstifadəçinin duruşu səhv vəziyyətdə olduğu halda telefonuna bildiriş gəlir və qaməti düzəltmək yada salınır.

"Safee" adlı ixtira yolda təhlükəsiz şəkildə, əsasən axşam vaxtı velosiped sürmək üçün dizayn edilib. Cihaz təhlükəsizlik işarələrini velosiped sürücüsünün bel nahiyəsinə əks etdirir. Nadir cihaz istehsal olunduğu ilk gündən dünya mediasında böyük maraq doğurub. Belə ki, BBC, Mirror, Yahoo və digər media qurumlarında layihə haqqında məqalələr dərc edilib və o, bir neçə qlobal mükafata layiq görülüb. Yaxın gələcəkdə kütləvi istehsalına başlanılacaq bu cihaz üçün bir sıra ölkələrdən yüzlərlə sifariş daxil olub.

"Wetravel" isə turizm şirkətləri üçün ödəmə şəbəkəsidir. Şəbəkə istifadəçisi olan şirkətlər bir-birləri ilə pul mübadiləsini ən aşağı komissiya ilə həyata keçirə bilərlər. Otellər, hostellər, aviaşirkətlər, səyahət agentlikləri və bu qəbildən digər şirkətlər platformanın imkanlarından yararlana bilərlər. "Wetravel" istifadəçilərə səyyah məlumatının, ödənişlərin asanlıqla toplanması, ən aşağı məzənnə ilə beynəlxalq ödənişlər kimi imkan yaradır. Platforma vasitəsilə 80-dən çox ölkəyə minlərlə səfər təşkil edilib.

"Namo Media" onlayn reklam idarəetmə sistemidir. Fox, ESPN kimi böyük xəbər saytlarının reklam idarəetməsi bu sistemlə həyata keçirilir. "Namo Media" 2014-cü ildə Twitter şirkəti tərəfindən 50 milyon dollar dəyərində qiymətləndirilərək alınıb.

Bu startaplar azərbaycanlı təsisçilər tərəfindən hazırlanıb və qlobal bazarı hədəfləyir.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya "Elektron hökumət"in yeni inkişaf konsepsiyası barədə də ətraflı məlumat verildi.

Xatırladaq ki, dövlət strukturlarında və dövlət xidmətlərinin həyata keçirilməsində informasiya və kommunikasiya texnologiyalarından istifadə olunması, innovativ həllərin tətbiqi Azərbaycanda dövlət siyasətinin prioritetlərindən biridir. Son illərdə bu sahədə davamlı inkişaf üçün mühüm tədbirlər görülüb. Ölkə üzrə internet şəbəkəsinin qurulması, açıq hökumətin təşviqi internet istifadəçisi sayının artmasına səbəb olub, ictimai əhəmiyyət daşıyan informasiyanın açıqlığı və informasiya əldə etmə azadlığı təmin edilib. Bununla yanaşı, son illər vətəndaşlara şəffaf, operativ və resurslara qənaət etməklə xidmət göstərilməsi üçün dövlət xidmətlərini tam elektronlaşdırmaq, dövlət informasiya ehtiyatlarının analitik təhlilini aparmaq və nəticələrindən dövlət və özəl sektorun istifadəsi imkanlarını yaratmaq əsas hədəfə çevrilib. Bütün bunlara görə dövlət informasiya ehtiyatlarının və sistemlərinin formalaşdırılması, idarə olunması və qarşılıqlı inteqrasiyasının təmin edilməsi sahəsində vahid yanaşmanın və standartların tətbiqi və rəqəmsal hökumətə keçid prosesinin sürətləndirilməsi zərurəti yaranmışdı. Bu işlərin sürətlə həyata keçirilməsi üçün Prezident İlham Əliyev 2018-ci il martın 14-də "Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçidlə bağlı tədbirlər haqqında" Fərman imzalayıb. Bu Fərmanla elektron hökumət sahəsində dövlət siyasətinin və tənzimlənməsinin həyata keçirilməsi məqsədilə Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində "Elektron Hökumətin İnkişafı Mərkəzi" publik hüquqi şəxs fəaliyyətə başlayıb.

# Bakıda Azərbaycan-Slovakiya biznes forumu keçirilib

İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə noyabrın 13-də Bakıda Azərbaycan-Slovakiya biznes forumu keçirilib. Tədbirdə Azərbaycan və Slovakiya rəsmiləri ilə yanaşı, sənaye, energetika, İKT, maşınqayırma, kimya, qida, dəmir yolları, səhiyyə və s. sahələrdə fəaliyyət göstərən 200-ə yaxın şirkətin nümayəndələri iştirak ediblər.



Avropa İttifaqının Azərbaycanın əsas xarici ticarət tərəfdaşı olduğunu deyən nazir Şahin Mustafayev bildirib ki, 2017-ci ildə Aİ-nin Azərbaycanın ticarət dövriyyəsində payı 42 faiz (9,4 milyard dollar) təşkil edib və 2018-ci ilin 9 ayında 26 faiz artaraq 9 milyard dollardan çox olub.

Nazir diqqətə çatdırıb ki, Azərbaycan və Slovakiya arasında ticarət dövriyyəsi bu ilin 9 ayında ötən ilin müvafiq dövrü ilə müqayisədə 33 faiz artıb. Hazırda Azərbaycanda xidmət, ticarət, tikinti, nəqliyyat və s. sahələrdə Slovakiya sərmayəli 11 şirkət fəaliyyət göstərir. Bununla belə, ölkələrimiz arasında qarşılıqlı ticarət, iqtisadi və investisiya əməkdaşlığını daha da inkişaf etdirmək imkanları var. İqtisadiyyat naziri Azərbaycan və Slovakiya arasında sənaye, energetika, kənd təsərrüfatı, turizm, İKT və nəqliyyat sahələrində əməkdaşlıq üçün potensialı qeyd edib, hər iki ölkənin işgüzar dairələrini əlverişli biznes mühitdən istifadə etməyə, Azərbaycan və Slovakiya arasında ticari-iqtisadi əlaqələrin inkişafına töhfə verəcək qarşılıqlı faydalı birgə layihələr həyata keçirməyə dəvət edib.

Şahin Mustafayev Azərbaycan iqtisadiyyatı, həyata keçirilən islahatlar və beynəlxalq maliyyə institutlarının hesabatlarında ölkəmizin mövqeyinin yaxşılaşması barədə də məlumat verib.

Qeyd olunub ki, Azərbaycan Cənubi Qafqazın siyasi və iqtisadi mərkəzidir. Cənubi Qafqazda ÜDM istehsalının 60 faizdən çoxu Azərbaycanın payına düşür. Azərbaycanı xarici investisiyalar üçün cəlbedici edən xüsusiyyətlər ölkənin tranzit potensialı, reallaşdırılan regional layihələr, əlverişli biznes mühiti və sairdir. Azərbaycanın uğurları beynəlxalq maliyyə institutları tərəfindən də yüksək qiymətləndirilir. Belə ki, Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycan öz mövqeyini 32 pillə yaxşılaşdıraraq 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb, 10 islahatçı ölkədən biri olub.

Slovakiya Respublikasının Baş naziri Peter Pelleqrini Azərbaycana səfərindən məmnunluğunu bildirib, biznes forumda çoxlu sayda iş adamının iştirak etməsinin əlaqələrin inkişafına verilən önəmin göstəricisi olduğunu vurğulayıb. Bildirilib ki, Azərbaycan qısa müddət ərzində böyük inkişaf yolu keçib, regionun önəmli ölkələrindəndir. Peter Pelleqrini Slovakiya iş adamlarının energetika, bərpa olunan enerji, maşınqayırma, kimya, İKT və s. sahələrdə əməkdaşlıqda maraqlı olduğunu qeyd edib, biznes forumun əməkdaşlığın genişləndirilməsinə, yeni əlaqələrin qurulmasına töhfə verəcəyini deyib. Vurğulanıb ki, yaxın zamanlarda Slovakiyanın Azərbaycanda səfirliyinin açılması, eləcə də ölkələrimiz arasında birgə Hökumətlərarası Komissiyanın yaradılması nəzərdə tutulur.

Sonra AZPROMO-nun rəhbəri vəzifəsini icra edən Yusif Abdullayev, Slovakiyanın İnvestisiya və Ticarətin Təşviqi Agentliyinin (SARİO) rəhbəri Tibor Buçek və SARİO-nun nümayəndəsi Tomaş Şandor müvafiq olaraq Azərbaycanın və Slovakiyanın biznes və investisiya mühiti barədə təqdimatlarla çıxış ediblər.

# Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) maliyyə dəstəyi ilə Azərbaycanın özəl sektorunda 157 layihə reallaşdırılıb

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu barədə iqtisadiyyat naziri, Avropa Yenidənqurma və İnkişaf Bankında Azərbaycandan müdir Şahin Mustafayev Azərbaycanda səfərdə olan AYİB-in vitse-prezidenti xanım Betsi Nelson ilə görüşündə deyib.

AYİB-in Azərbaycan nümayəndəliyinin rəhbəri İvana Duratenin də iştirak etdiyi görüşdə Azərbaycan və AYİB arasında mövcud əməkdaşlıq və əlaqələrin genişləndirilməsi perspektivləri müzakirə edilib, ölkəmizdə aparılan iqtisadi islahatlar və onların uğurlu nəticələri bank rəsmisinin diqqətinə çatdırılıb, AYİB-in Şərqi Avropa və Qafqaz üzrə yeni icraçı direktoru Matteo Patron Azərbaycan tərəfinə təqdim edilib.

İqtisadiyyat naziri qeyri-neft sektorunun inkişafının, iqtisadiyyatın şaxələndirilməsinin Azərbaycanın prioritetləri olduğunu diqqətə çatdırıb, bu istiqamətdə həyata keçirilən islahatlar, eləcə də bu ilin yanvar-sentyabr ayları üzrə əsas makroiqtisadi göstəricilər barədə məlumat verib. Şahin Mustafayev Azərbaycan və AYİB arasındakı səmərəli və uzunmüddətli əməkdaşlığın olduğunu, bankın ölkəmizdə özəl sektorun maliyyələşdirilməsi, enerji, infrastruktur və s. sahələrə dəstək göstərdiyini vurğulayıb.

Qeyd olunub ki, AYİB-in maliyyə dəstəyi ilə Azərbaycanın özəl sektorunda 157 layihə reallaşdırılıb. Azərbaycan və AYİB-in əməkdaşlıq etdiyi mühüm layihələrdən olan TANAP layihəsi Avropanın enerji təminatında önəmli olacaq.



AYİB-lə əməkdaşlığın inkişaf perspektivlərinə dair fikirlərini bölüşən nazir Şahin Mustafayev Azərbaycanın AYİB ilə əməkdaşlığın davam etdirilməsində maraqlı olduğunu qeyd edib, bankla özəl sektor arasında əlaqələrin inkişafının, İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi və Sahibkarlığın İnkişafı Fondu ilə əlaqələrin qurulmasının AYİB-lə əməkdaşlığın genişləndirilməsində əhəmiyyətli olacağını diqqətə çatdırıb. AYİB-in vitse-prezidenti Betsi Nelson bankın ölkəmizlə əlaqələrin genişləndirilməsinə xüsusi önəm verdiyini diqqətə çatdırıb, Azərbaycanda aparılan iqtisadi islahatların təqdirəlayiq olduğunu vurğulayıb. Betsi Nelson AYİB-in ölkəmizdə reallaşdırılan layihələrin maliyyələşdirilməsini davam etdirəcəyini, özəl sektorla əlaqələrin genişləndirilməsində maraqlı olduğunu bildirib.

# ACEAN liderlərinin və dialoq üzrə tərəfdaşların yüksək səviyyəli görüşü




Cənub Çin dənizində təhlükəsizlik, terrorizmə qarşı mübarizə, kiber təhlükəsizliyin təmin olunması, həmçinin dünyanın ən böyük azad ticarət zonasının yaradılması məsələləri noyabrın 13-də Sinqapurda Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyasının (ACEAN) 33-cü sammitində və eyni zamanda, ACEAN liderlərinin və dialoq üzrə tərəfdaşların yüksək səviyyəli görüşlərində diqqət mərkəzində olacaq.

AZƏRTAC xəbər verir ki, əsas tədbir ACEAN-nın cari ildəki fəaliyyətinə yekun vuran Şərqi Asiya Sammiti (ŞAS) olacaq, təşkilata sədrlik növbəti dövlətə təhvil veriləcək. 2019-cu ildə bu vəzifəni Tailand həyata keçirəcək.

Xatırladaq ki, ŞAS 2005-ci ildə Asiya-Sakit okean regionu dövlətləri liderlərinin strateji dialoqu üçün platforma kimi yaradılıb və burada təhlükəsizliyin təmin edilməsi, iqtisadi inkişaf məsələləri müzakirə edilir.

ACEAN-a Bruney, Vyetnam, İndoneziya, Kamboca, Laos, Malayziya, Myanma, Sinqapur, Tailand, Filippin daxildir. Avstraliya, Hindistan, Rusiya, Çin, Yeni Zelandiya, Koreya Respublikası, ABŞ və Yaponiya təşkilatda dialoq tərəfdaşı statusuna malikdirlər.

# Oktyabr ayında Neft İxrac Edən Ölkələr Təşkilatının (OPEC) gündəlik xam neft istehsalı artıb

AZƏRTAC xəbər verir ki, bu barədə OPEC-in aylıq hesabatında deyilir. Bildirilir ki, OPEC-in neft hasilatı oktyabrda sentyabr ayı ilə müqayisədə 127 min barrel artaraq, gündəlik 32 milyon 900 min barrel olub. OPEC-in dünya neft hasilatındakı payı isə 33 faiz səviyyəsində qalıb.

Ötən ay OPEC üzrə neft istehsalını ən çox artıran ölkələr Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı, Liviya və Anqola olub. Birləşmiş Ərəb Əmirliklərində gündəlik istehsal 142 min barrel artaraq, 3 milyon 160 min barrel olub. Sutkalıq neft hasilatı Səudiyyə Ərəbistanında 127 min barrel çoxalaraq, 10 milyon 630 min barrelə çatıb. Liviyanın gündəlik xam neft istehsalı 60 min barrel artaraq, 1 milyon 114 min barrel, Anqolanın hasilatı isə 22 min barrel çoxalaraq, sutkada 1 milyon 533 min barrel olub. Oktyabrda OPEC-ə üzv ölkələrdə neft istehsalı ən çox İran, Venesuela, Küveyt və Nigeriyada azalıb. İranın gündəlik neft istehsalı 156 min barrel azalaraq 3 milyon 296 min barrelə düşüb. Venesuelanın hasilatı 40 min barrel geriləyərək sutkada 1 milyon 171 min barrel, Küveytdə 33 min barrel azalaraq gündəlik 2 milyon 764 min barrel təşkil edib. Nigeriyada isə neft istehsalı ötən ay 17 min barrel azalaraq 1 milyon 751 min barrelə düşüb.

Keçən ay dünyada fəaliyyətə başlayan neft qazma qurğularının sayı 2 min 355 olub və onların 568-i OPEC-ə üzv ölkələrdəndir.

Beynəlxalq Enerji Agentliyinin (IEA) "World Energy Outlook 2018" hesabatında Qlobal neft istehsalının 2040-cı ildə sutkada 103 milyon 400 min barrelə çatacağının gözlənildiyi qeyd edilir. Hesabata görə, Neft İxrac Edən Ölkələr Təşkilatının (OPEC) qlobal neft hasilatındakı payı təxminən 45 faizə çatacaq. Asiyanın payına düşən qlobal neft və qaz ticarətinin isə 2040-cı ilə qədər üçdə-iki nisbətində artacağı proqnozlaşdırılır.

Qeyd edək ki, hazırda OPEC-in dünya neft istehsalındakı payı 33 faiz civarındadır.

# 2019-cu ilin dövlət büdcəsi sosialyönümlülüyünü qoruyacaq





***Noyabrın 13-də Milli Məclisin növbəti plenar iclasında "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında" qanun layihəsi və büdcə zərfinə daxil olan digər qanun layihələrinin müzakirəsinə başlanılıb. Ölkənin Baş naziri Novruz Məmmədov və hökumətin üzvləri iclasda iştirak ediblər.***

**İclası açan Milli Məclisin Sədri Oqtay Əsədov** deyib ki, Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi uğurlu inkişaf strategiyası ölkəmizdə təşəkkül tapmış makroiqtisadi sabitliyi və maliyyə dayanıqlılığını daha da möhkəmləndirməyə, iqtisadi inkişaf və təhlükəsizlik sahəsində dövlət siyasətinin prioritetlərini və məqsədlərini həyata keçirməyə imkan yaradıb. 2018-ci ilin 9 ayında bütün makroiqtisadi göstəricilər üzrə artım müşahidə edilib. Bu dövr ərzində valyuta ehtiyatlarımız 3 milyard dollar artaraq 45 milyard dollara çatıb. Əhalinin gəlirlərinin artımı inflyasiyanı üstələyib ki, bu da sosial vəziyyətin yaxşılaşmasının əsas göstəricilərindən biridir. "2019-cu ilin dövlət büdcəsi sosialyönümlülüyünü qoruyacaq. Büdcə xərclərinin 32 faizini sosialyönümlü xərclər təşkil edir. Diqqət çəkən məqamlardan biri də əhalinin sağlamlığının qorunması üçün ayrılan vəsaitlə bağlıdır. 2019-cu ildə səhiyyə sahəsinə ayrılan xərclər bu ilin müvafiq xərclərindən 309 milyon manat, yəni 42 faiz çoxdur. Bundan əlavə, icbari tibbi sığorta üçün 223 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur. Bütün bunlar onu göstərir ki, əhalinin sağlamlığının qorunması dövlətin prioritetlərindən biridir. Ölkə üçün strateji sahə hesab olunan təhsil xərcləri 2018-ci ilə nisbətən 11 faiz artacaq və 2 milyard 275 milyon manata çatacaq", - deyə Oqtay Əsədov qeyd edib.

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə** bildirib ki, Prezident İlham Əliyev dünya iqtisadiyyatında baş verən prosesləri, onların Azərbaycana təsirini obyektiv qiymətləndirir, dövlət və özəl sektor münasibətlərinin əməkdaşlıq səviyyəsinə çatması üçün sistemli tədbirlər həyata keçirir. Ölkədə müəyyən edilmiş strateji kursun reallaşması üçün icra mexanizmi yaradılır, hökumət strukturları, o cümlədən iqtisadi strukturlar arasında koordinasiya işinin səviyyəsinin yüksəlməsinə nail olunur. İqtisadi, siyasi, hüquqi islahatların qarşılıqlı əlaqəli şəkildə həyata keçirilməsi, ölkənin iqtisadi qüdrətinin artırılması, milli maraqların qorunması istiqamətində atılan uğurlu addımlar nəticəsində beynəlxalq maliyyə qurumları ilə əməkdaşlığın yeni keyfiyyət mərhələsinə keçirilməsi təmin edilib. İqtisadi təhlükəsizliyin təmin edilməsi istiqamətində görülən işlərin məntiqi nəticəsidir ki, dünyada baş verən maliyyə böhranı Avropa, ABŞ və digər çoxsaylı ölkələrdən fərqli olaraq Azərbaycan iqtisadiyyatı üçün sarsıntılar yaratmadı. Komitə sədri qeyd edib ki, əmək bazarını sağlamlaşdırmaq, qeyri-rəsmi məşğulluğun səviyyəsini əhəmiyyətli dərəcədə azaltmaq və əməkhaqlarını leqallaşdırmaq məqsədilə neft-qaz sahəsində fəaliyyəti olmayan özəl sektorda 7 il müddətinə güzəştlər nəzərdə tutulub.

**İclasda çıxış edən maliyyə naziri Samir Şərifov** bildirib ki, 2019-cu ilin icmal və dövlət büdcələri yeni qəbul edilmiş büdcə qaydasına uyğun olaraq hazırlanıb. Bu qaydanın tətbiqi dövlət xərclərinin prosiklikliyinin əhəmiyyətli dərəcədə aradan qaldırılmasını, dövlət gəlirlərinin formalaşmasında xüsusi çəkiyə malik olan neft gəlirindən əvvəlcədən müəyyən olunmuş fiskal çərçivə daxilində istifadəni hədəfləyir və orta və uzunmüddətli dövrdə büdcə intizamına, dayanıqlılığına təminat olacaq.

Qeyd edilib ki, təqdim olunmuş sənədlərdə icmal büdcənin xərcləri 27 milyard 372 milyon manat, dövlət büdcəsinin xərcləri isə 24 milyard 780 milyon manat məbləğlərində və ya cari illə müqayisədə müvafiq olaraq 797 milyon manat, 3 faiz və 1 milyard 680 milyon manat, 7,3 faiz çox nəzərdə tutulur. Göstərilən xərclərin məbləği büdcə qaydasında əks olunan üç meyara tam uyğundur. Həm xalis maliyyə aktivlərinin müəyyən edilmiş nisbət göstəricisindən azdır və cari ilin icmal və dövlət büdcələrinin xərclərinin 103 faizindən üstün deyil, həm də icmal büdcənin qeyri-neft baza kəsirinin ümumi daxili məhsulun nisbətinin tədricən azaldılması üzrə hədəfi təmin edir. Belə ki, bu, cari ilin göstəricisi ilə müqayisədə 1,7 faiz bənd aşağı olacaq. Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyevin bilavasitə tapşırığı ilə biznes mühitinin yaxşılaşması istiqamətində son illərdə həyata keçirilmiş tədbirlər Dünya Bankının "Doing Business 2019" hesabatında yüksək qiymətə layiq görülüb, Azərbaycan dünyada ən islahatçı ölkə kimi tanınaraq 190 ölkə arasında 25-ci yerə yüksəlib.

Nazir qeyd edib ki, iqtisadi artıma digər dəstək istiqaməti olaraq sahibkarlar üçün 2019-cu ildən vergi yükünün azaldılması ilə bağlı tədbirlərin reallaşdırılması nəzərdə tutulub. Növbəti ildə qeyri-neft sektorunun inkişafı və sahibkarlıq fəaliyyətinin dəstəklənməsi məqsədilə kənd təsərrüfatı məhsullarının istehsalçılarına tətbiq olunan vergi güzəştinin daha beş il müddətinə uzadılması gözlənilir.

Bildirilib ki, 2019-cu il üçün dövlət büdcəsinin xərclərinin 9 milyard 891 milyon manatı və yaxud 39,9 faizi əsaslı xərclərə, bu məbləğin də 69 faizi və ya 6 milyard 825 milyon manatı dövlət əsaslı vəsait qoyuluşu xərclərinin maliyyələşdirilməsinə, bir sözlə, iqtisadi artıma dəstək verən dövlət investisiyalarına yönəldiləcək. Növbəti ildə dövlət büdcəsi xərclərinin 7,3 faiz artmasına və vergi sahəsinə təklif olunan güzəştlərin azaldıcı təsirlərinə baxmayaraq, Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertin cari ilin səviyyəsində saxlanılmasına nail olunub.

Vurğulanıb ki, kənd təsərrüfatının dəstəklənməsi növbəti ildə də davam etdirilməklə bu sahəyə ayrılan xərclər cari illə müqayisədə 10,5 faiz artaraq 835 milyon manat səviyyəsində proqnozlaşdırılır. Növbəti ilin dövlət büdcəsində kiçik və orta biznesin inkişafına 30 milyon manat, özəlləşdirmədən qabaq müəssisələrin sağlamlaşdırılması tədbirləri üçün 20 milyon manat, bir sıra dövlət müəssisələrində islahatların aparılması ilə bağlı texniki-iqtisadi əsaslandırmanın hazırlanması üçün 5 milyon manat vəsait nəzərdə tutulub.

Azərbaycanda turizm sahəsinin inkişaf etdirilməsi məqsədilə dövlət büdcəsindən 63 milyon manat vəsait ayrılması nəzərdə tutulur. 2019-cu ilin dövlət büdcəsi sosialyönümlü büdcə ənənəsini davam etdirir. Belə ki, gələn ilin dövlət büdcəsində sosialyönümlü xərclər üçün 7 milyard 920 milyon manat vəsait proqnozlaşdırılıb. Bu da 2018-ci illə müqayisədə 798 milyon manat və ya 11,2 faiz çoxdur. Gələn il ölkədə ehtiyac meyarının həddinin 13 manat artırılaraq 143 manata, əhalinin sosial demoqrafik qrupları üzrə yaşayış minimum məbləğinin 173 manatdan 180 manata çatdırılması nəzərdə tutulur. Qaçqınların və məcburi köçkünlərin sosial müdafiəsi ilə bağlı xərclər üçün 262 milyon manat vəsait ayrılacaq ki, bu da cari illə müqayisədə 7 faiz çox deməkdir. Ölkənin ərazi bütövlüyü uğrunda həlak olmuş və itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinə Azərbaycan Prezidentinin müvafiq sərəncamına əsasən cari ildən başlanmış birdəfəlik ödənişlərin verilməsi proqramının növbəti ildə də davam etdirilməsi üçün 50 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur.

2019-cu ildə vətəndaşların güzəştli şərtlərlə mənzillərlə təmin edilməsi, hərbi qulluqçuların mənzillərlə təmin olunması, habelə kirayə götürülmüş yaşayış sahəsinə görə yaşayış yeri olmayan hərbi qulluqçulara ödənilən pul kompensasiyası ilə bağlı xərclərə 212 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur. Ümumiyyətlə, funksional təsnifatına görə dövlət büdcəsinin xərclərində 2018-ci illə müqayisədə 2019-cu ildə səhiyyə xərcləri 41,8 faiz, təhsil xərcləri 11,3 faiz, sosial müdafiə və sosial təminat xərcləri 9 faiz, mədəniyyət və incəsənət xərcləri 9,7 faiz, elm xərcləri isə 4,2 faiz artımla proqnozlaşdırılıb.

**İqtisadiyyat naziri Şahin Mustafayev** bildirib ki, ortamüddətli dövr üçün ölkənin iqtisadi proqnozları hazırlanarkən növbəti ildə inflyasiyanın 3,8 faiz olacağı proqnozlaşdırılıb. Qeyd edilənlər, habelə neft və qeyri-neft sektorunun inkişafı amilləri nəzərə alınmaqla 2019-cu ildə ümumi daxili məhsulun 3,6 faiz, növbəti illərdə orta hesabla 3,4 faiz artacağı, tədiyə balansının cari hesabının müsbət olacağı proqnozlaşdırılır.

Diqqətə çatdırılıb ki, gələn il "Şahdəniz" yatağında neft-qaz hasilatının artması hesabına neft sektorunda 3,1 faiz, növbəti illərdə orta hesabla 3,2 faiz artım gözlənilir. Növbəti ildə əsas kapitala investisiya qoyuluşları 17,9 milyard manat, o cümlədən xarici investisiyaların 7,5, daxili sərmayələrin 10,4 milyard manat təşkil edəcəyi proqnozlaşdırılır. Əsas kapitala investisiya qoyuluşlarının artacağı əsas götürülməklə 2019-cu ildə tikinti sektorunda artım 2,5 faiz gözlənilir.

Prezident İlham Əliyevin həyata keçirdiyi iqtisadi islahatların tərkib hissəsi olan investisiya təşviqi mexanizminin tətbiqi özəl investisiyaların artımına ciddi töhfə verir. İndiyədək 281 sahibkara 320 investisiya təşviqi sənədi verilib. Bununla yanaşı, kompleks dövlət dəstəyi göstərilən, layihələrinin ümumi dəyəri 2,5 milyard manat təşkil edən və tikintisi davam etdirilən 181 istehsal və emal müəssisəsinin istifadəyə verilməsi qeyri-neft sektorunun inkişafına mühüm töhfə verməklə yanaşı, 19 min yeni iş yerinin açılması imkanı yaradacaq.

İqtisadiyyatın prioritet sahəsi olan qeyri-neft sektorunun artımının 2019-cu ildə 3,9 faiz, növbəti illərdə isə orta hesabla 3,5 faiz olacağı proqnozlaşdırılır. Qeyri-neft sektorunun inkişafında xüsusi əhəmiyyətə malik qeyri-neft sənayesi üzrə cari ilin 9 ayında əlavə dəyər 11 faiz artıb, sənayeləşmə templəri yüksəlib, sənayenin aparıcı və ənənəvi sahələri ilə yanaşı, yeni sahələr yaradılıb, bir sıra məhsullar üzrə idxaldan asılılıq azalıb.

Şahin Mustafayev bildirib ki, qeyri-neft sənayesinin inkişafında mühüm rola malik sənaye parkları və məhəllələrində indiyədək 62 sahibkarlıq subyektinə rezident statusu verilib. Sumqayıt Kimya Sənaye Parkında layihələrinin ümumi dəyəri 2,8 milyard ABŞ dollarından artıq olan 18 müəssisəyə rezident statusu verilib, bunlardan 9-u artıq fəaliyyətə başlayıb, 5 müəssisənin ilin sonunadək, daha 3-nün isə gələn il istifadəyə verilməsi planlaşdırılır. Balaxanı Sənaye Parkının 1-ci sahəsində tullantıların təkrar emalı üzrə 5 rezident fəaliyyətə başlayıb, cari ildə müəssisələr tərəfindən istehsal edilmiş məhsulun 50 faizi ixrac olunub. Mingəçevir Sənaye Parkında istehsal gücü 20 min ton və dəyəri 85 milyon dollar olan 2 iplik fabriki 2018-ci ilin birinci rübündə istifadəyə verilib, 750 iş yeri açılıb.

Qeyri-neft sənayesinin inkişafı üzrə həyata keçirilən islahatların gözlənilən nəticələri nəzərə alınmaqla, sahə üzrə 2019-cu ildə 9,7 faiz, növbəti illərdə orta hesabla 5,8 faiz artım proqnozlaşdırılır.

Nazir söyləyib ki, ümumilikdə, kənd təsərrüfatının inkişafı istiqamətində aparılan kompleks tədbirlərin nəticəsi olaraq cari ilin 9 ayında bu sahədə real artım 4,3 faiz təşkil edib.

Hazırda 30 rayon üzrə 192 min hektar ərazidə investisiya dəyəri 1,4 milyard manat olan 45 aqroparkın yaradılması üzrə işlər sürətlə davam etdirilir. 15 aqropark üzrə dəyəri 566 milyon manat olan 27 layihəyə investisiya təşviqi sənədi verilib. Artıq 6 aqropark fəaliyyətə başlayıb, cari ilin sonunadək daha 12 aqroparkın fəaliyyətə başlaması gözlənilir. Qeyd edilənlər nəzərə alınaraq, aqrar sektor üzrə 2019-cu ildə 4,6 faiz, növbəti 3 ildə orta hesabla 4,5 faizdən çox artım gözlənilir.

İqtisadiyyat naziri deyib ki, qeyri-neft sektorunda xüsusi paya malik olan xidmətlər sektorunda 2019-cu və sonrakı illərdə orta hesabla 3,4 faiz artım proqnozlaşdırılır.

İnformasiya və rabitə sektorunda 2019-cu ildə 6,2 faiz, növbəti illərdə isə orta hesabla 7,1 faiz artım gözlənilir. 2018-ci ilin 9 ayında bu sektorda iqtisadi artım 7,7 faiz təşkil edib.

Görülən işlərin nəticəsi olaraq 2018-ci ilin 9 ayında nəqliyyat sektorunda 7,7 faiz real artımın qeydə alındığını deyən nazir bildirib ki, göstərilənlər nəzərə alınaraq 2019-cu ildə nəqliyyat sektorunda 5,2 faiz, sonrakı üç ildə isə orta hesabla 4,7 faiz artımın olacağı proqnozlaşdırılır. Hesablama Palatasının sədri Vüqar Gülməmmədov deyib ki, növbəti il üçün əsaslı xərclərin, ümumiyyətlə, investisiya məbləğinin cari illə müqayisədə nəzərəçarpacaq artımla proqnozlaşdırılmadığını, bununla yanaşı, ÜDM-in cari il üzrə real artım tempinin 2,0 faiz səviyyəsində gözlənildiyini, həmçinin qarşıdakı ildə bu parametrin 3,6 faiz səviyyəsində nəzərdə tutulduğunu nəzərə alsaq, həm ilin sonuna qalan dövr, həm də növbəti il ərzində ÜDM-in daha sürətli artımının ehtimal olunduğu və proqnozlaşdırıldığı qənaətindəyik.

**Müzakirələr zamanı çıxış edən deputatlar xeyli təkmil olan 2019-cu ilin dövlət büdcəsi layihəsinin qanunvericiliyə uyğun hazırlandığını bildiriblər. Qeyd edilib ki, 2019-cu ildə də dövlət büdcəsinin sosialyönümlülüyünün davam etdirilməsi, əhalinin rifah halının yaxşılaşdırılması və sosial müdafiəsinin gücləndirilməsi ölkənin əsas maliyyə sənədinin müsbət cəhətlərindəndir.**

**Milli Məclisin**
**Mətbuat xidməti**



"Azərbaycan Xalq Cümhuriyyəti İli" 100

# Azərbaycan Xalq Cümhuriyyəti dövründə ədəbi mühit

Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan xalqının tarixi, siyasi və mənəvi-psixoloji həyatında, o cümlədən dövrün ədəbi-bədii fikir nümunələrində silinməz izlər buraxmışdır. Cümhuriyyət dövrünün öz böyük poeziyası, nəsri, dramaturgiyası və publisistikası olmuşdur. Araşdırmalar göstərir ki, hətta ay da, ulduz da rəmz və obraz kimi rəsmiləşən milli simvolikaya – üçrəng bayrağa və gerbə poeziyadan, romantik nəsrdən və inqilabi publisistikadan keçərək gəlmişdir.

Aşkar həqiqətdir ki, Cümhuriyyət dövrünün ədəbiyyatını ilk dəfə araşdıran və dəyərləndirənlər də elə Cümhuriyyəti və onun mədəniyyətini yaradanların özləri olmuşlar. Ədəbi prosesləri tənzim edənlər və yaradanlar – **Məhəmməd Əmin Rəsulzadə, Mirzəbala Məmmədzadə, Parlamentin sədri Əlimərdan bəy Topçubaşov, sədr müavini Həsən bəy Ağayev, Cümhuriyyət hökumətinin sədri Fətəli xan Xoyski, həmçinin Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Üzeyir və Ceyhun bəy Hacıbəyli qardaşları, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə, Məhəmməd Hadi, Əhməd Cavad, Adbulla Şaiq, Salman Mümtaz, Əlabbas Müznib** və başqaları idilər. Xüsusən, "Cümhuriyyət şairi" Əhməd Cavadın, Əli Yusif, Ümmügülsüm, Əmin Abid (Gültəkin), Cəfər Cabbarlı, Bədri Seyidzadə, Mürşid, Davud (Ağamirzadə), Əli Şövqi kimi gənclərin şeirləri el arasında sürətlə yayılır, marşa, himnə, nəğməyə çevrilirdi. Azərbaycanın istiqlalına, milli dövlətə, bayrağa və gerbə, türkçülük idealına, ümumbəşəri və islami dəyərlərə həsr olunmuş ən yaxşı ədəbi-bədii, elmi-publisistik, fəlsəfi-tarixi əsərlər məhz Cümhuriyyət dövründə yaranmışdır. Azərbaycanın tam müstəqilliyi və istiqlalı ideyası əksər ziyalıları bir bayraq altında birləşdirir və ədəbi hərəkat da ən çox bu yöndə irəliləyirdi. M.Ə.Rəsulzadə, Ə.Ağaoğlu, Ə.Hüseynzadə, C.Hacıbəyli kimi xadimlər Avropada və Rusiyada vüsət tapan xristian birliyi hərəkatı müqabilində "türkləşmə, islamlaşma və müasirləşmə" ideyasını irəli sürür və onun qələbəsinə çalışırdılar. Bu ideya Azərbaycanda siyasi, sosioloji və fəlsəfi istiqamətə yönəlir, azərbaycançılıq təlimi ilə qaynayıb-qarışırdı.

**M.Ə.Rəsulzadə 1919-cu ildə "Azərbaycan"qəzetində yazıçı və şairləri bu ideyanı əks etdirməyə çağırır və yazırdı: "Mətbuatın, ədəbiyyatın millətin qəlbinə miliyyət və istiqlal toxumu saçanbir əməl olduğu məlumdur... Ey millətin lisanül-qeybi olan şairlər, ədiblər! Millətin əməllərini, ülvi niyyət və məqsədlərini oxşayınız, kəndisinə millət sevgisi, vətən məhəbbəti, hürriyyət eşqi təlqin ediniz".**

1918-20-ci illərdə gənc ədəbi qüvvələrin bir amal uğrunda təcrübəli nəsillərə birləşmək arzusu duyulurdu. **"Gəliniz əsrlərlə millətin ürəyində daş bağlayan dərdlərini açıb tökək!", - deyən Mirzə Cəlil güneyli, quzeyli Azərbaycanın taleyini düşünürdü.**

Cümhuriyyətin əvvəlcə Ukraynada, sonra isə Türkiyədə rəsmi elçisi olan **Yusif Vəzir Çəmənzəminli "Bu gün yazıçıya nə gərəkdir?" sualına belə cavab verirdi: "Dil azadlığı, qələm azadlığı!".** Başqa görkəmli sənət ustaları da Cümhuriyyətin verdiyi qələm azadlığından bəhrələnirdilər. N.Vəzirov, S.S. Axundov, Y.V.Çəmənzəminli, S.Hüseyn, A.Divanbəyoğlu və başqaları pedaqoji işdə, publisistika sahəsində, dövlət işlərində çalışır, siyasi həyata qoşulurdular. Bir çoxlarını ədəbiyyat tarixi məsələləri də düşündürürdü. Belə ki, Yusif Vəzir "Litva tatarlarının tarixi", "Azərbaycan ədəbiyyatı tarixinə bir nəzər" kitablarını yazır, S.Mümtaz Azərbaycanın klassik şairlərinin əsərlərini toplayırdı. Ə.Haqverdiyev, Ə. Qəmküsar, Ömər Faiq və başqaları Tiflisdə çalışırdılar.

Cəfər Cabbarlının istiqlal mövzulu şeirləri 1918-20-ci illərin inqilabi və romantik əhval-ruhiyyəsini xüsusilə qabarıq ifadə edən fəlsəfi-rəmzi nümunələr idi. **Şair "Yaşıl donlu, al yanaqlı, mavi gözlü sevdiyim" dediyi məşuqəyə eşq elan edir və onun tarixi simvolikasını açırdı.**

Bu dövr poeziyasında "Cümhuriyyət şairi" Əhməd Cavadın səsi daha gur eşidilirdi. Əhməd Cavadın həyat və yaradıcılığının ən parlaq və məhsuldar dövrü XX əsrin 10-cu illərinin ortalarına və Azərbaycan Xalq Cümhuriyyəti dövrünə təsadüf edir. Bu illərdə onun "Qoşmalar" (1916) və "Dalğa" (1919) adlı şeir topluları nəşr edilmişdir. Həmin dövrdə Ə.Cavadın fəaliyyəti bilavasitə M.Ə.Rəsulzadə ilə bağlı olmuşdur. Ə.Cavad məhz M.Ə.Rəsulzadənin təklifi ilə "Müsavat" partiyasına daxil olmuşdur.

Daim ictimai-siyasi hadisələrin mərkəzində olan Ə.Cavad Cümhuriyyətin qurulmasını "Azərbaycan, Azərbaycan!" və "Canım-gözüm, gözüm-canım Azərbaycanım" şeirləri ilə alqışlamışdır. 28 May – İstiqlal günü, milli ordu, türk birliyi, üçrəngli, səkkizguşəli ay-ulduzlu bayraq onun şeirlərinin əsas atributları idi.



Azərbaycan hərbi birlikləri ilə türk ordu hissələri Bakıya daxil olduqda, Ə.Cavad əsgər yoldaşları ilə bərabər, Bakının Yasamal dağındakı səngərlərdə düşmənlə vuruşurdu. "Bismillah" şeirini də o, həmin döyüş meydanında yazmışdır.

Ə.Cavadın ikinci şeir kitabı olan "Dalğa"da (1919), əsasən, istiqlal dövründə yazdığı şeirləri toplanmışdır. Şair tükənməz ilhamını sonsuz, ülvi məhəbbətlə sevdiyi Azərbaycan milli istiqlalının tərənnümünə həsr etmişdir ("Nədən yarandın", "Azərbaycan bayrağına", "Al bayrağa", "Gəlmə", "Bakı deyir ki...", "Qardaş", "İngilis" və s. şeirləri).

**"Mən çeynənən bir ölkənin haqq bağıran səsiyəm", - deyən Ə. Cavad milli azadlığı təhdid edən şimal yelinə, azad dağları bürümək istəyən dumana, milli dövləti devirməyə çalışan təcavüzkar qüvvələrə qəzəblə xəbərdarlıq edirdi.**

Ə.Cavad ömrünün sonuna qədər milli istiqlal ideallarınasadiq qalmış və bu yolda şəhid olmuşdur. Bunu onun Cümhuriyyətin süqutundan, Aprel işğalından (1920) sonra yazdığı əsərlər də sübut edir. 1925-ci ildə yazdığı "Göygöl" şeirində şair müstəqil Azərbaycanın dövlət bayrağındakı ay-ulduza işarə edərək deyirdi:

**Sənin gözəlliyin gəlməz ki saya,**
**Qoynunda yer vardır ulduza, Aya,**
**Oldun sən onlara mehriban daya,**
**Fələk büsatını quralı, Göygöl.**

Şair bu şeirə görə həs olunmuşdur.

**(ardı gələn sayımızda)**

# "Caspian Ecology" -nin məqsədi ətraf mühit problemlərinə diqqəti cəlb etməkdir

Noyabrın 14-dən 16-dək "Bakı Ekspo Mərkəzi"ndə IX Azərbaycan Beynəlxalq Ətraf Mühit "Caspian Ecology 2018" sərgisi keçirilir. "Caspian Ecology" sərgisi Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN), eləcə də IDEA (Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq) İctimai Birliyi tərəfindən dəstəklənir. Sərginin təşkilatçısı qismində isə "Caspian Event Organisers" (CEO) şirkəti çıxış edir.




Sərgi ərəfəsində keçirilən mətbuat konfransında ekologiya və təbii sərvətlər nazirinin müavini Firdovsi Əliyev çıxış edib. O, sərginin əhəmiyyətini vurğulayaraq bildirib ki, sərginin əsas məqsədlərindən biri ətraf mühit problemlərinə insanların diqqətini cəlb etməkdir. O, Prezident İlham Əliyevin təşəbbüsü ilə 2010-cu ilin ölkəmizdə "Ekologiya İli" elan edilməsini iştirakçılara xatırladıb. Bununla əlaqədar müxtəlif tədbirlər keçirilib, spesifik sahələr üzrə elektron resurslar yaradılıb, əhali arasında maarifləndirmə işləri aparılıb.

"Caspian Event Organisers" şirkətinin nümayəndəsi Edvard Stroon qeyd edib ki, bu sərgi Xəzəryanı və Qafqaz regionunda ekologiya və ətraf mühitin qorunması sahəsində ən iri tədbirdir. Sərgidə ətraf mühitin mühafizəsi və təbiətdən səmərələri istifadə sahəsində innovasiya araşdırmaları kompleks şəkildə təmsil olunub.

Sərginin meneceri Jalə Məmmədova bu beynəlxalq sərginin iştirakçıları barədə ətraflı məlumat verib. Qeyd edilib ki, cari ildə sərgidə dünyanın 8 ölkəsindən 43 şirkət iştirak edəcək. Onların arasında Azərbaycanla yanaşı, Türkiyə, Almaniya, Böyük Britaniya, Ukrayna və digər ölkələrin şirkətləri də öz stendlərini nümayiş etdirəcəklər. Sərgidə Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, həmçinin "Azərsu" ASC, BP şirkəti, "Damla" İctimai Birliyi, Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ), "SOCAR Polymer" MMC, "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyəti kimi dövlət qurumları və şirkətlər iştirak edəcəklər. İlk dəfə olaraq sərgidə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunun stendi də təqdim olunacaq.

Ümumilikdə, "Caspian Ecology 2018" sərgisində təbii resurslardan səmərəli istifadə sahəsində ən son məhsullar, sülb (bərk) tullantıların toplanması və utilizasiyası sistemləri, eləcə də alternativ energetika üzrə müasir avadanlıq nümunələri və digər məhsullar nümayiş etdiriləcək.

Şirkətlər tullantıların utilizasiyası və təkrar emalı üçün avadanlıqlar, sutəmizləmə sistemləri, neft və qaz kəşfiyyatı və emalı xidmətləri, kağız, karton istehsalı ilə yanaşı, bir sıra digər məhsulları da təqdim edəcəklər.

Beləliklə, Beynəlxalq "Caspian Ecology" sərgisi işgüzar əlaqələrin genişləndirilməsi, təcrübə mübadiləsi, habelə sənayedəki yeni avadanlıq və təmayüllərlə tanışlığa imkan yaratmaqla yanaşı, ətraf mühitin yaxşılaşdırılması istiqamətində görülən işlərə də əlavə təkan verəcək.

# İstehlak məhsullarının və xidmətlərin qiymətləri 2,4 faiz bahalaşıb

Bu ilin yanvar-oktyabr aylarında istehlak məhsullarının və xidmətlərin qiymətləri 2017-ci ilin müvafiq dövrünə nisbətən 2,4 faiz, o cümlədən ərzaq məhsullarının qiymətləri 2,1 faiz, qeyri-ərzaq mallarının qiymətləri 2,8 faiz, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri 2,6 faiz bahalaşıb.

Dövlət Statistika Komitəsindən bildiriblər ki, cari ilin oktyabr ayında sentyabr ayına nisbətən istehlak məhsullarının və xidmətlərin qiymətlərində 0,2 faiz, o cümlədən qeyri-ərzaq mallarının qiymətlərində 0,2 faiz, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətlərində isə 0,1 faiz bahalaşma qeydə alınıb.

Ay ərzində qeyri-ərzaq mallarından parçaların, geyimin, ayaqqabıların, inşaat materiallarının, kiçik elektrik cihazlarının, minik avtomobilləri üçün ehtiyat hissələrinin, fərdi və planşet tipli kompüterlərin, dəftərxana ləvazimatlarının qiymətlərində bahalaşma, paltaryuyan maşınların, kondisionerlərin, tozsoranların, mobil telefonların, fotoaparatların qiymətlərində isə ucuzlaşma müşahidə olunub. Digər qeyri-ərzaq məhsullarının qiymətlərində ciddi dəyişiklik baş verməyib.




Oktyabr ayında sentyabr ayına nisbətən əhaliyə göstərilən ödənişli xidmətlərdən hava nəqliyyatı ilə MDB ölkələri istisna olmaqla, digər ölkələrə sərnişindaşıma, avtomobillərin təmiri, bərbərxana və kosmetoloji xidmətlərin qiymətləri, mənzillərin icarə haqqı, kompüter kurslarında təhsil haqqı bahalaşıb, dəmir yolu və hava nəqliyyatı ilə MDB ölkələrinə sərnişindaşıma xidmətlərinin qiymətləri isə ucuzlaşıb. Digər ödənişli xidmətlərin qiymətlərində ciddi dəyişiklik olmayıb.

# Azərbaycan Polşada keçiriləcək ərzaq yarmarkasında iştirak edəcək

Polşanın paytaxtı Varşavada noyabrın 14-dən 18-nə kimi ənənəvi "Milli ərzaqlar yarmarkası" keçiriləcək. Yarmarkada milli mətbəxləri və qida məhsulları ilə Azərbaycan, Macarıstan, İtaliya və Yunanıstan iştirak edəcək.

Şəhərin ən böyük ticarət mərkəzlərindən birində keçiriləcək yarmarkada yalnız bioloji təmiz məhsullar nümayiş etdiriləcək. Bura bal, çörək növləri, ət və ət məhsulları, ev şirniyyatları, meyvə və tərəvəzlər, balıq məhsulları daxildir.

Nümayiş olunan bütün məhsulları dequstasiya etmək və almaq mümkün olacaq.

Həmçinin, istehsalçılarla birbaşa əməkdaşlıq qurmaq imkanı da yaradılacaq.

## Министр: Прогнозируется, что инвестиционные вложения в основной капитал в будущем году составят 17,9 миллиарда манатов



Прогнозируется, что в будущем году инвестиционные вложения в основной капитал составят 17,9 миллиарда манатов, в том числе, зарубежные инвестиции составят 7,5 миллиарда манатов, внутренние – 10,4 миллиарда манатов. Взяв за основу рост инвестиционных вложений в основной капитал, в 2019 году в строительном секторе ожидается рост на 2,5 процента.
Как сообщает АЗЕРТАДЖ, об этом 13 ноября сообщил министр экономики Шахин Мустафаев во время выступления на пленарном заседании Милли Меджлиса.
Министр сказал: «Внедрение механизма инвестиционного поощрения, являющегося составной частью экономических реформ, осуществляемых Президентом Ильхамом Алиевым, вносит серьезный вклад в рост частных инвестиций.
По сей день 281 предпринимателю выдано 320 документов о поощрении инвестиций. В осуществление этих проектов, охватывающих восемь экономических районов, вложены инвестиции в размере 2,7 миллиарда манатов, предусмотрено открытие свыше 21 тысячи новых рабочих мест. 63 процента предприятий, получивших документ о поощрении инвестиций, уже начали действовать, другие начнут работать до конца будущего года».
Шахин Мустафаев также отметил, что сдача в эксплуатацию 181 производственного и перерабатывающего предприятия, строительство которых продолжается, и которым оказана комплексная государственная поддержка общей стоимостью 2,5 миллиарда манатов, наряду с тем, что внесет важный вклад в развитие ненефтяного сектора, также создаст возможность для открытия 19 тысяч новых рабочих мест. Согласно прогнозам, в результате осуществляемых комплексных мер в 2019 году рост приоритетной сферы экономики – ненефтяного сектора составит 3,9 процента, а в последующие годы – в среднем 3,5 процента.
Было доведено до внимания, что на сегодняшний день в созданных по распоряжениям Президента Азербайджанской Республики промышленных кварталах и парках, играющих важную роль в развитии ненефтяной промышленности, 62 предпринимательским субъектам был дан статус резидента. В Сумгайытском химическом промышленном парке 18 предприятиям, общая стоимость проектов которых составляет свыше 2,8 миллиарда долларов США, был дан статус резидента, 9 из них уже введены в строй.

## В Баку состоялся азербайджано-словацкий бизнес-форум



13 ноября в Баку состоялся азербайджано-словацкий бизнес-форум, организованный Фондом поощрения экспорта и инвестиций в Азербайджане (АЗПРОМО) при поддержке Министерства экономики. В мероприятии наряду с официальными лицами Азербайджана и Словакии приняли участие представители до 200 компаний, действующих в промышленной, энергетической, машиностроительной, химической, пищевой, железнодорожной сферах, секторах ИКТ и здравоохранения.
Министр экономики Шахин Мустафаев отметил, что форум является благоприятной платформой для проведения переговоров и определения перспективных сфер сотрудничества между деловыми кругами, подчеркнул, что мероприятие позволит бизнесменам обсудить конкретные проекты. Было отмечено, что Азербайджан придает большое значение развитию связей со странами Европейского Союза (ЕС), в том числе Словакией. Сегодня существует широкое сотрудничество между Азербайджаном и Европейским Союзом. Свидетельством успешного экономического сотрудничества являются многочисленные деловые форумы, мероприятия, подписанные документы, роль Азербайджана в обеспечении энергетической безопасности Европы и продолжающиеся совместные проекты.
Отметив, что Европейский Союз является основным внешнеторговым партнером Азербайджана, министр сказал, что в 2017 году доля ЕС в торговом обороте Азербайджана составила 42 процента (9,4 миллиарда долларов), а за 9 месяцев 2018 года увеличилась на 26 процентов и превысила 9 миллиардов долларов.
Министр Шахин Мустафаев довел до внимания, что торговый оборот между Азербайджаном и Словакией за 9 месяцев этого года по сравнению с соответствующим периодом прошлого года увеличился на 33 процента. В настоящее время в Азербайджане в сфере обслуживания, торговли, строительства, транспорта и пр. областях осуществляют деятельность 11 компаний со словацкими инвестициями. Вместе с тем, есть возможность для дальнейшего развития сотрудничества наших стран в торговой, экономической и инвестиционной сферах. Министр экономики отметил наличие потенциала для сотрудничества между Азербайджаном и Словакией в промышленной, энергетической, сельскохозяйственной, туристической, транспортной сферах, секторе ИКТ, пригласил деловые круги двух стран воспользоваться благоприятным бизнес-климатом, осуществлять взаимовыгодные совместные проекты, которые внесут вклад в развитие торгово-экономических связей между Азербайджаном и Словакией.
Шахин Мустафаев проинформировал и об азербайджанской экономике, проводимых реформах и улучшении позиции нашей страны в отчетах международных финансовых институтов. Было отмечено, что Азербайджан – политический и экономический центр Южного Кавказа. Более 60 процентов ВВП на Южном Кавказе приходится на долю Азербайджана. Особенностями, делающими Азербайджан привлекательным для внешних инвестиций, являются транзитный потенциал страны, реализуемые региональные проекты, благоприятный бизнес-климат и др. Успехи Азербайджана высоко оцениваются и международными финансовыми институтами.
Так, в отчете «Doing Business 2019» Всемирного банка Азербайджан, улучшив свою позицию на 32 ступени, занял 25-е место среди 190 стран, стал одной из 10 стран-реформаторов.
Премьер-министр Словацкой Республики Петер Пеллегрини выразил удовлетворение визитом в Азербайджан, отметил, что участие в бизнес-форуме большого числа бизнесменов свидетельствует о значении, придаваемом развитию связей. Он сказал, что Азербайджан за короткий срок прошел большой путь развития, является одной из важных стран региона.
На бизнес-форуме словацкие бизнесмены проинформировали о своей деятельности, состоялись двусторонние встречи между бизнесменами.

## Ассортимент экспортируемой из Азербайджана продукции достиг 2753 наименований

За 9 месяцев нынешнего года ассортимент экспортируемой из Азербайджана продукции достиг 2753 наименований. Азербайджан осуществляет торговые операции с 176 странами мира.
Об этом заявил заместитель министра экономики Руфат Мамедов.
Замминистра отметил, что за отчетный период экспорт ненефтяной продукции увеличился на 13 процентов, сельскохозяйственной продукции – на более чем 20 процентов.



## Экспорт азербайджанских вин увеличился на более чем 43 процента



За 9 месяцев нынешнего года экспорт винной продукции из Азербайджана вырос на более чем 43 процента.
Об этом заявил исполняющий обязанности руководителя Фонда поощрения экспорта и инвестиций в Азербайджане (AZPROMO) Юсиф Абдуллаев.
Он отметил, что с начала будущего года начнется экспорт винной продукции в Монголию.
В открывшемся недавно с Шанхае «Винном доме» демонстрируется более 120 наименований винной продукции от 15 азербайджанских производителей.
Напомним, что первый «Винный дом» в Китае открылся 2 сентября в Урумчи.

## ЗАО AzerGold увеличило добычу золота





В связи с оптимизацией операционных процессов со стороны ЗАО AzerGold, в добыче золота зафиксирован значительный рост.
Как сообщили АЗЕРТАДЖ в ЗАО, в частности, за первые десять месяцев 2018 года добыча золота составила 36 632 унции, тем самым превысив прошлогодние показатели.
В целом, ЗАО AzerGold до конца текущего года планирует добычу 45 тысяч унций золота, что на 33 процента превышает аналогичные показатели за прошлый год.
На данный момент работы по добыче осуществляются в соответствии с планом.
С целью увеличения запасов эксплуатируемых участков и введения в эксплуатацию новых месторождений осуществляются широкомасштабные геолого-разведочные работы.
На данный момент завершено бурение 32 разведочных скважин с общей глубиной 6 тысяч метров, осуществляемое в целях повышения запасов сульфидных руд месторождения Човдар Дашкесанского района. Собранная в рамках разведочных работ информация будет использована международной консалтинговой компанией Micon International в разработке технико-экономического обоснования проекта.
Начиная с июня текущего года, на основе полученных положительных результатов с потенциально перспективного участка Агйохуш, обнаруженного геологами ЗАО AzerGold, осуществляются контрольно-оценочные буровые работы. Введение в эксплуатацию новых месторождений позволит значительно увеличить объемы добычи в ближайшие годы. По предварительным оценкам, только эксплуатация месторождения Филизчай, а также оксидной и сульфидной фаз месторождения Човдар принесет экономике страны доход в размере более 10 миллиардов манатов.

## Баку лучший город для шопинга у российских туристов



Баку лидирует в рейтинге путешествий для шопинга среди городов государств СНГ.
Российское аналитическое агентство ТурСтат составило рейтинг лучших городов СНГ для шопинга у российских туристов. Рейтинг представлен по результатам анализа популярности шопинг туров в 2018 году. В тройку городов СНГ, популярных для шопинга у российских туристов, вошли столицы Азербайджана, Казастана и Беларуси.
По данным ТурСтат, туристы приезжают в города СНГ в среднем на 2-3 дня и тратят на шопинг до 1 тысячи долларов. Агентство также отмечает, что в Баку с 1 по 31 мая 2018 года прошел Бакинский шопинг-фестиваль (Baku Shopping Festival), который вызвал большой интерес у иностранных туристов.

# TİCARƏT ŞƏBƏKƏSİNDƏ ZAHİRİ REKLAM

(əvvəli ötən sayımızda)

Reklam mətni, bir qayda olaraq, sərlövhə, izahat və nəticədən ibarətdir. Sərlövhə (sloqan) diqqəti mətnə cəlb edir, alıcıda maraq yaradır. İzahatın məqsədi reklam olunan obyektin xeyrini göstərməkdir. Nəticə alıcını təklif edilən malı almağa inandırmalıdır.

Müəyyən edilmişdir ki, mətnə nisbətən sərlövhəni beş dəfə çox oxuyurlar, əksər insanlar isə yalnız sərlövhəni oxuyurlar. Reklam olunan malın xeyirli (sağlamlığın möhkəmləndirilməsi, mətbəxdə işin yüngülləşdirilməsi və s.) vəəd verən başlığı digərlərinə nisbətən həmişə səmərəlidir.




Eksperimentlər göstərirdi ki, 10 və daha çox hərfdən uzun olan sərlövhələr qısa başlıqlara nisbətən zəif qəbul olunur. Əgər sərlövhə sitatı əks etdirirsə və dırnaq içində verilirsə, onun xatırlanması 28% artır.

Qeyri-adi sərlövhələr də uğurlu olur. Məsələn, “Nə istədiyinizi bilmirsinizsə, bizim mağazaya gəlin”.

Sərlövhənin cəlbediciliyinə görə onu aşağıdakılara bölmək olar:

- malın üstünlüyünü göstərən;
- yeniliyi və ya anonsu ehtiva edən;
- maraq oyadan.

Ən yaxşı sərlövhələr özündə üç komponenti ehtiva edir.

Mətn əksər reklam vasitələrinin ən mühüm hssəsidir. O, bir qayda olaraq, reklam göndərişinin əsas məzmununu açır. Reklam mətninin işlənib hazırlanmasının əsasında, sözsüz, riayət olunan müəyyən prinsiplər durur.

1. Diqqəti cəlb etməyə və saxlamağa cəhd edin.

Reklam mətni öz xarici görünüşü, sərlövhəsi (sloqanı) ilə potensial alıcının diqqətini cəlb etməli, izahı ilə onu maraqlandırmalı, təklif olunan malı almağa inandırmalıdır. Yüksək reklam dəyərinə, obraz yaradan emosiyaya malik sözlər ayrıca göstərilməlidir.

2. Fikrinizi sadə sözlərlə ifadə edin.

İmkan dairəsində adi sözlərdən və qısa cümlələrdən istifadə etmək lazımdır ki, bunların mənasını hər bir insan anlaya bilsin. Texniki terminlərin, anlaşılmaz və az tanınan sözlərin tətbiqindən qaçmaq lazımdır. Belə yazmaq olmaz: “biz əminik”, “biz hesab edirik”, “fantastik, cah-calallı, dəbdəbəli, təmtəraqlı”.

3. Maraqlı fikir söyləyin.

Mətn çox maraq doğurmalı və əyləndirici olmalıdır. Uzun, cansıxıcı sadalamalardan qaçmaq lazımdır. Oxucunu elə-belə mallar yox, faydalı mallar maraqlandırır ki, bu mallardan xeyir götürə bilər. Hazırcavab, yumorlu mətnlər çox yaxşı təəssürat yaradır.

4.Birbaşa fikir söyləyin.

Cümləyə qənaət edin, lazımsız sözləri, xüsusilə sifətləri götürün. Cümlənizi qənaətlə izah edin.

4. Müsbət fikir söyləyin.

Mənfi xarakterli məlumat (bəyanat) vermək lazım deyil. Məsələn, “bu güzəştli təklifi buraxmayın!” və s.

5. Sağlam düşüncəni rəhbər tutun.

İnandırın ki, orta düşüncəli insan sizin çatdırmaq istədiyiniz əsas fikri anlaya bilər.

6. Qısa və mütəxəssis fikri söyləyin.

Kiçik mətnlər oxucuların diqqətini cəlb edir. Mətnə olan əsas tələb lakoniklik, yəni minimum sözlərlə maksimum informasiya çatdırmaqdır. Mətndə ən zərurini yazaraq, daha lakonik olmaq imkanını tapmaq lazımdır.

7.Orijinal olun və heç kimə oxşamayın.

Qeyri-adi müraciət hökmən oxucunun diqqətini özünə cəlb edəcəkdir. Sərlövhə, illüstrasiya, mətn və elanın konfiqurasiyası qeyri-adi ola bilər. Lakin adət edilməmiş və mənasız, cəfəng sözlər arasında sərhədi hiss etmək lazımdır.

8. Faktlar və dəlilləri xüsusilə qeyd edin.

Reklam müraciətində sizin çatdırmaq istədiyiniz əsas ideyaları oxucunun şüurunda qeyd etmək və möhkəmləndirmək lazımdır. Lakin hamıya məlum olan həqiqətləri heç kim oxumayacaqdır.

9. Oxucuya izah edin ki, o, nə etməlidir.

Reklam müəyyən ifadələrin köməyilə oxucuya konkret və müsbət təlimatlar verməlidir.

Reklam mətninin işlənib hazırlanmasının bu əsas prinsipləri dövri nəşrlərdə reklamın hazırlanması zamanı istifadə oluna bilər.

(ardı var)

**F.M.Qarayev,**
**BDU-nun dosenti**









# Yeni ildə yaxınlarınıza İSMA Bikes hədiyyə edin




Əmanət yerləşdirən müştərilər artıq 15 gündür ki, “AtaBank” ASC-nin “25-ci il əmanəti” kampaniyasından faydalanırlar.

Əmanətçilərə müqavilə ilə birgə hədiyyələrin siyahısı təqdim olunur və müştərilər yerləşdirdikləri məbləğə uyğun olaraq hədiyyə seçimi edirlər. Artıq kampaniya çərçivəsində – 131 İsma Bikes, 39iPhone X,18 iPhone Xs və müxtəlif hədiyyələr bankın əmanətçilərinə hədiyyə olunmuşdur.

Xatırlatmaq istərdik ki, AtaBank-da əmanət yerləşdirən müştərilərə veriləcək hədiyyələr aşağıdakılardır: iPhone X və Xs, İsma Bikes, Excelsior Hotel, Excelsior Hotel Shamkir, Qalaaltı Hotel & SPA, Shamakhi Palace Sharadil, Quba Palace, Garabag Resort & SPA otellərində istirahətvə Uludağ /Şarm-Əl-Şeyx/ Dubay istiqamətlərinə səyahət paketləri.

Kampaniya yalnız fiziki şəxslərə şamil olunur və 28 dekabr 2018-ci il tarixinədək qüvvədədir.

WhatsApp istifadəçiləri AtaBank-ın WhatsApp əlavəsinə bağlı olan 050 9999136 telefon nömrəsinə yazaraq, kampaniya haqqında istənilən məlumatı operativ əldə edə bilərlər.

1993-cü ildən fəaliyyət göstərən “AtaBank” ASC 100% yerli kapitala malik, qabaqcıl texnologiyalı universal Azərbaycan bankıdır. Bank Bakıda və ölkənin müxtəlif regionlarında korporativ və fərdi müştərilərə tam xidmətlər spektrini təqdim edir.

# Azərbaycan turizm sahəsində sürətlə inkişaf edən ölkələr arasındadır



Polşanın turizmlə bağlı “TTG” biznes qəzetində dünyanın bu istiqamətdə sürətlə inkişaf edən 10 ölkəsi barədə məlumat dərc olunub. Məlumat verilib ki, ilk onluğa daxil olan Azərbaycanda turizmin inkişafı son bir ildə 20 faiz artıb. Dünya Turizm Təşkilatının hesablamalarına əsasən, “Bloomberg” agentliyinin hazırladığı məlumatlarda Azərbaycana bir il ərzində 1,7 milyon turistin gəldiyi bildirilir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.**

# AZƏRBAYCAN KƏNDİ ŞƏHƏRDƏN SEÇİLMƏYƏN BİR DİYARA ÇEVRİLƏCƏK

Bu gün Azərbaycan beynəlxalq əhəmiyyətli nəqliyyat dəhlizlərinin qovuşduğu logistik mərkəzə çevrilir. Bu dəhliz dəniz, hava, dəmir yolu və avtomobil yolları ilə şərqi qərblə, cənubu şimalla birləşdirir. Ulu öndər tərəfindən əsası qoyulan "Əsrin müqaviləsi"ndən sonra bu layihə miqyasına və əhəmiyyətinə görə Azərbaycan üçün ən nəhəng layihədir. Cari ilin sentyabr ayında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən açılışı həyata keçirilən iri yol layihələri də bu dəhlizin tərkib hissəsidir. Yenicə istifadəyə verilən Ələt-Astara-İran sərhədi avtomobil yolu Biləsuvar rayonundan keçir. Bu magistral yol XVI əsrə qədər mövcud olmuş Qədim İpək Yolunun müasir anlamda bərpası deməkdir. Yolun üzərində yerləşən şəhərlərin, kəndlərin, yaşayış məntəqələrinin sanki bir günün içində hüsnü, siması dəyişib, gecə-gündüz ardı-arası kəsilməyən avtomobil karvanlarının hərəkət etdiyi məkana çevrilib. İndiki Biləsuvarı on-on beş il əvvəlki Biləsuvarla müqayisə etmək olmur. Hər şey, necə deyərlər "yerlə-göy arasında" dəyişib. Son illər icra olunan mühüm infrastruktur layihələri nəticəsində rayonun sosial-iqtisadi və mədəni həyatında köklü dəyişiklər baş verib. Bu illər ərzində rayonda Olimpiya İdman Kompleksi, Heydər Əliyev İstirahət və Mədəniyyət parkı, Bayraq Meydanı, Gənclər Evi, Bayraq Muzeyi, şəhid və əlil ailələri üçün 64 mənzilli 4 yaşayış binası inşa edilib. Biləsuvar Mərkəzi Xəstəxanası, Tarix Diyarşünaslıq Muzeyi əsaslı təmir olunub, 30 ümumtəhsil müəssisəsi istifadəyə verilib. Bundan başqa, Biləsuvar şəhərinin içməli su təchizatı sistemi yenidən qurulub, iri istehsal və emal müəssisələri açılıb, 25 mindən artıq yeni iş yerləri yaradılıb, genişmiqyaslı abadlıq-quruculuq işləri görülüb... Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu ilin sentyabr ayının 18-də Biləsuvara səfəri zamanı demişdir:

"Biləsuvarda sosial-iqtisadi inkişaf uğurla gedir, rayonun infrastruktur layihələri icra edilir, qazlaşdırmanın səviyyəsi 90 faizə yaxındır. Göstəriş vermişəm ki, gələn il Biləsuvar rayonunun qazlaşdırılması 100 faizə çatdırılsın. Bu günə kimi həll olunmayan layihələr də icra edilsin. Təxminən 5 il əvvəl burada olarkən biz içməli su layihəsinin açılışını etdik. Azərbaycanda elektrik stansiyalarının tikintisi nəticəsində yeni yarımstansiyalar da icra olunur. Dayanıqlı elektrik enerjisi ilə təminat yaxşılaşır. Bir sözlə, infrastruktur layihələrinin həlli gözəl imkanlar yaradır, həm insanların rahatlığı təmin edilir, həm də iqtisadi inkişafa təkan verir"...

Qeyd etmək lazımdır ki, infrastruktur layihələri içərisində yol layihələri mühüm yer tutur. Sözsüz ki, rahat, müasir, rəvan yol infrastrukturu olmayan yerdə heç bir inkişafdan, tərəqqidən danışmaq olmaz. Məhz buna görə də ölkəmizdə yol nəqliyyat sisteminin yenidən qurulması prosesi dayandırılmadan davam etdirilir. Masallı və Biləsuvar rayonlarına səfəri zamanı cənab Prezident İlham Əliyev əvvəlcə Şimal-Cənub Beynəlxalq Nəqliyyat dəhlizinin bir hissəsini təşkil edən Ələt-Astara-İran sərhədi magistral avtomobil yolunun, sonra isə Biləsuvar-Zəhmətabad-Bəydili-Xırmandalı-Əliabad yolunun açılışını həyata keçirib. Heç şübhəsiz ki, bu cür müasir, rahat yolun istismara verilməsi bölgənin iqtisadi həyatında bir canlanma yaradacaq, bütün sahələrin, o cümlədən azad sahibkarlığın yüksək standartlar səviyyəsində qurulmasına geniş imkanlar açacaq. Rayonda 20 minədək əhalinin yaşadığı 4 yaşayış məntəqəsini birləşdirən 15,4 kilometr uzunluğunda yeni avtomobil yolu artıq istifadəyə verilib. İkinci və üçüncü texniki dərəcəyə uyğun tikilmiş bu yol iki hərəkət zolaqlıdır. Yolun inşası zamanı 26,1 min kubmetr torpaq işləri görülüb, 11,6 min kubmetr tikinti materiallarından və asfalt-beton örtüyündən istifadə edilib. Yol boyunca nişanlar və göstərici layihələr quraşdırılıb. Cari ilin yanvar ayında dövlət başçısının imzaladığı sərəncam əsasında reallaşdırılan bu avtomobil yolu yaşayış məntəqələrinin rayon mərkəzi ilə nəqliyyat əlaqəsini yaxşılaşdıracaq. İndiyədək görülən tədbirlər nəticəsində Biləsuvar rayonunda kənd yollarının təqribən 80 faizi əsaslı təmir edilmiş və yeni salınmışdır. Yaxın müddət ərzində asfaltlaşma 100 faizə çatdırılacaq. Yerli sakinlər beldə hesab edirlər ki, Ələt-Astara-İran sərhədi magistral avtomobil yolu regionun şah damarıdır. Artıq kənd əməkçiləri, sahibkarlıq subyektləri min-bir zəhmətlə hasil etdikləri məhsulları rahat şəkildə və qısa müddət ərzində satış obyektlərinə çatdıra biləcəklər.

Biləsuvar aqrar rayondur. Burada pambıqçılıq prioritet seçilsə də, tərəvəz və bostan bitkilərinin yetişdirilməsinə də böyük diqqət yetirilir. Son illər həyata keçirilən islahat proqramları nəticəsində istehsal edilən məhsulun həcmində və çeşidində artım templəri müşahidə olunur. Sözsüz ki, burada dövlətin maliyyə yardımı və dəstəyi mühüm rol oynayır. Güzəştli kreditlər verilir, subsidiyalar ayrılır, gübrələrlə, kənd təsərrüfatı texnikası ilə təminat yaxşılaşır.

Yol infrastrukturu maliyyə tutumlu sahədir, belə layihələrin reallaşdırılması üçün irihəcmli vəsaitlər tələb olunur. Lakin dövlət bunları edir, bütün zəruri infrastruktur layihələrini həyata keçirir. Çünki mükəmməl infrastruktur dövlətin iqtisadi gücünü şərtləndirən vacib amillər sırasındadır. Digər sosial layihələr də az əhəmiyyət kəsb etmir. İndi, demək olar ki, Azərbaycanın hər guşəsində Dövlət Bayrağı Meydanı yaradılıb. Bu gün dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarında vüqarla dalğalanan üçrəngli bayrağımız indi respublikamızın hər bir bölgəsində dalğalanır, insanların fəxr və qürur yerinə çevrilib. Cənab prezident Biləsuvara səfəri çərçivəsində Bayraq Muzeyinin açılışını da həyata keçirib. Bayraq Muzeyinin inşasına keçən il başlanılıb və bu ilin may ayında başa çatdırılıb. Ümumi ərazisi 400 kvadratmetr olan ikimərtəbəli muzey binası sərgi zalından, inzibati və yardımçı otaqlardan ibarətdir. Sərgi zalında altı bölmə yaradılıb. Burada




xanlıqlar dövrünün xəritəsi, orta əsrlərə aid döyüşləri əks etdirən eksponatlar, xanlıqlar dövrünün bayraqları, XIX əsr Azərbaycan şəhərlərinin gerbləri, qədim metal sikkələr, əskinazlar sərgilənir.

Bundan başqa, Azərbaycan Xalq Cümhuriyyəti, sovet dövrü, müstəqillik illərinə aid qiymətli materiallar, hərbi geyimlər, ümummilli lider Heydər Əliyevin müxtəlif mərasimlərdən fotoşəkilləri, ibrətamiz kəlamları, cənab Prezident İlham Əliyevin Biləsuvar Bayraq Meydanının açılışında çəkilmiş fotoşəkillər, poçt markaları, orden və medallar muzeyin ekspozisiyasını bəzəyir. Heydər Əliyevin adını daşıyan İstirahət və Mədəniyyət Parkının yanında tikilən Bayraq Meydanında hündürlüyü 65 metr olan bayraq ucaldılıb, ətrafda fəvvarə kompleksi inşa edilib, postamentdə Azərbaycan Respublikasının gerbi, himni, xəritəsi əks olunub.

Biləsuvarda Gənclər Evi də öz qapılarını qonaqların üzünə açıb. Modern üslubda tikilən Gənclər Evinin inşasına ötən il başlanılıb və cari ilin may ayında başa çatdırılıb. Bina ikimərtəbəlidir, ümumi sahəsi 1200 kvadratmetrdir. Bina öz orijinallığı və funksionallığı ilə diqqəti cəlb edir. Burada müxtəlif tədbirlərin keçirilməsi üçün 250 yerlik akt və konfrans zalları yaradılıb. Rəqs zalının, internet kafenin, fotostudiyanın, vətənpərvərlik klubunun, istedadların hazırlığı laboratoriyasının yerləşdiyi Gənclər Evində şahmat, rəsm, dizayn dərnəkləri, xarici dil və danışıq klubu fəaliyyət göstərir. Vaxtilə bir əyalət rayonunda belə unikal təsisatların yaradılması xəyal görünə bilərdi. Bu gün burada yaradılan şəraitdən yüzlərlə, minlərlə gənc bəhrələnəcək, istedadlar üzə çıxarılacaq, onlar dünyaya çıxmaq, təqdim olunmaq imkanı qazanacaqlar.

Prezident İlham Əliyev Biləsuvara səfərindən dərhal sonra üç sərəncam imzalayıb. Həmin sərəncamla 48 mənzilli yaşayış binasının tikintisi üçün prezidentin ehtiyat fondundan 3 milyon manat, yol infrastrukturunun yaxşılaşdırılması məqsədilə 3 milyon manat və Biləsuvar şəhərində 1176 şagird yerlik ümumtəhsil məktəbinin tikintisi üçün ilkin olaraq 2 milyon manat vəsait ayrılıb.

Azad sahibkarlıq və liberal iqtisadiyyatın təşviqi ilə bağlı yazı hazırlayarkən həmişə bir məqam diqqəti çəkir. Hansı yerdə ki, yüksək standartlara cavab verən infrastruktur yaradılıb, orada inkişaf və irəliləyiş var. İnfrastruktur biznes fəaliyyətinə birbaşa təsir göstərir. Bir məsələni də xüsusi olaraq vurğulamaq lazımdır ki, Azərbaycanda diqqətdən kənarda qalan rayon yoxdur. Tarazlı inkişaf konsepsiyası bütün bölgələrin sürətli inkişafını təmin edib. Bir də ki, infrastruktur dedikdə təkcə yol, elektrik enerjisi, təbii qaz və su təminatını nəzərdə tutmuruq. Sözsüz ki, bunlar ön cərgədə dayanır.

Lakin bununla bərabər, abadlıq, yaşıllaşdırma işləri, səhiyyə, təhsil, idman obyektləri, mədəniyyət ocaqları, parklar, xiyabanlar gözəllikləri tamamlayan mühüm elementlərdir. Bütün bunlar cazibə yaradan, insanın ruhunu oxşayan amillərdir. Biləsuvar rayonunda da bu istiqamətdə çoxsaylı tədbirlər həyata keçirilmişdir. Sözsüz ki, bir məqalədə bunların hamısı haqqında danışmaq çətindir. Ancaq görünən budur ki, gerçəkləşən hər bir layihə neçə-neçə uğurla başlanğıclara, xeyirxah işlərə yol açmışdır.

Rayonda aqrar sahədə aparılan islahatlar, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində görülən tədbirlər, həm də kiçik və orta sahibkarlığın, o cümlədən ailə-fermer təsərrüfatlarının dirçəlməsinə böyük təkan verilmişdir. Ancaq qarşıda böyük vəzifələr durur. İstehsalın və suvarma sistemlərinin modernləşdirilməsi, toxum və gübrə materialları ilə təminatın yaxşılaşdırılması, kiçik sahibkarlıq subyektlərinin istehsal etdikləri məhsulların itkisiz olaraq bazara çıxışının, yaxud emal prosesinə cəlb olunmasının təmin edilməsi kimi problemlər öz həllini tapmalıdır.

Biləsuvarda açılan "Gənclər Evi" haqqında söhbət etdik. Belə evlər respublikanın bütün bölgələrində açılır. Bu tipli təsisatları dövlət ona görə yaradır ki, bölgələrimizdə yaşayan gənclərimiz sabah real sektorda öz yerlərini tuta bilsinlər. Bu cənab prezidentin insan kapitalı strategiyasının ayrılmaz tərkib hissəsidir.

Azərbaycan bu yolla inamla irəliləyəcək, yaxın illərdə kəndi şəhərindən seçilməyən çiçəklənən bir diyara çevriləcəkdir.

**Zülfü İLYASOV,**
**bölgə müxbiri**

# MÜASİR DÖVRDƏ AZƏRBAYCANDA UŞAQLARA QAYĞI VƏ ONLARIN SAĞLAMLIĞININ MÜHAFİZƏSİ

Əsası xalqımızın ümummilli lideri, dahi Heydər Əliyev tərəfindən qoyulmuş səhiyyə strategiyası ölkə başçısı tərəfindən uğurla davam etdirilir. Müstəqillik illərində Azərbaycanda əhaliyə, xüsusilə uşaqlara göstərilən tibbi xidmət yüksək inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu gün BMT və ÜST-də qəbul edilən və hər bir dövlətin inkişaf səviyyəsini xarakterizə edən əsas göstərici "uşaq ölümü" hesab olunur. Hal-hazırda bir yaşa qədər uşaq ölümü göstəriciləri yaxşılaşsa da, onun strukturunda yeni doğulmuşların ölümünün xüsusi çəkisi hələ də yüksək olaraq qalır. Körpə ölümünü törədən səbəblər sırasında perinatal və neonatal dövrlərdə rast gəlinən patologiya və xəstəliklər, o cümlədən anadangəlmə ürək qüsurları üstünlük təşkil edir. Bu onu göstərir ki, bu dövrün patologiyalarının öyrənilməsi təbabətin qarşısında duran ən aktual tibbi və sosial-iqtisadi problemlərdən biridir. BMT-nin "Uşaq fondu" bütün ölkələrin qarşısında uşaq ölümünü azaltmaq məsələsini qoymuşdur. Odur ki, yeni doğulmuş uşaqların xəstələnməsinin və ölümünün səviyyəsinin azaldılması hər bir ölkənin qarşısında duran dövlət əhəmiyyətli məsələyə çevrilmişdir. ÜST uşaqların sağlamlıq vəziyyətinə xüsusi diqqət ayırır, sağlamlığının mühafizəsi üsullarını işləyib hazırlayır və bütün ölkələri bu üsulları tətbiq etməyə çağırır.

Azərbaycan dövləti ÜST və BMT ilə daim sıx əməkdaşlıq edir. BMT-nin "Beynəlxalq Uşaq Hüquqları Konvensiyası"-na qoşularaq, hər beş ildən bir uşaqların sağlamlıq vəziyyəti barədə bu təşkilata hesabat verir. Ölkəmizdə səhiyyə sisteminin beynəlxalq standartlara uyğun təşkili, eyni zamanda, elmi texnologiyaların inkişafına əsaslanaraq, uşaqların sağlamlığının mühafizəsinə dair Dövlət Proqramları işlənib hazırlanmışdır.

Dövlət başçısının xüsusi fərmanı ilə 2003-cü ilin noyabrında "Azərbaycanda sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri" haqqında genişmiqyaslı Dövlət Proqramının qəbul edilməsi Səhiyyənin inkişafında başlanğıc mərhələ hesab olunur. 2006-cı ildə "Ana və uşaqların sağlamlığının qorunması" Dövlət Proqramının təsdiq edilməsi xüsusilə əhəmiyyətlidir. Məhz bu Dövlət Proqramı əsasında ölkənin ayrı-ayrı regionlarında Perinatal mərkəzlər yaradılmış və fəaliyyətə başlamışdır. Həm də Dövlət Proqramı çərçivəsində doğulduğu dövrdən uşaqlaraElektron sağlamlıq kartları verilməyə başlanmışdır. Beləliklə də, ölkəmizdə "Elektron Azərbaycan Proqramı" tətbiq olunmuşdur. Dünyanın ən inkişaf etmiş ölkələrində tətbiq olunan bu sistemin ölkəmizdə uğurla tətbiq edilməsi gələcəkdə uşaqların sağlamlıq vəziyyəti, onlara göstərilən tibbi xidmət haqqında məlumat almağa şərait yaradır. 2006-cı ildə Səhiyyə Nazirliyinin qərarı ilə "Ana və uşaqların sağlamlığının qorunması" məsələsi Səhiyyənin prioritet istiqaməti qəbul edilmişdir. Ölkə prezidentinin xüsusi sərəncamı ilə 2009-cu il "Uşaq ili" elan olunmuşdur. 2012-ci ildə Nazirliyin 79 saylı əmri ilə yaradılmış uşaq və yeniyetmələrə göstərilən tibbi xidmətin yaxşılaşdırılması və ölüm hallarının araşdırılması üzrə Səhiyyə Nazirliyinin komissiyasının yaradılması bu problemə diqqət və qayğının artmasını bir daha sübut edir. Qəbul olunan ən vacib Dövlət Proqramlarından biri "Yoluxucu xəstəliklərin immunoprofilaktikası"na həsr olunmuşdur. Hal-hazırda ölkəmizdə xəstəliklərin qarşısını almaq üçün, dövlət tərəfindən ayrılan maliyyə vəsaiti hesabına uşaqlarda on bir yoluxucu xəstəliyə qarşı peyvənd aparılır. Azərbaycan Avropa peyvənd proqramına daxil olmaqla, bu sahədə böyük uğurlar əldə etmişdir. Sonrakı illərdə "Uşaqların icbari dispanserizasiyası haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Bu qanun uşaqların sağlamlığının qorunmasında müstəsna əhəmiyyətlidir və təqdirəlayiqdir. Statistik məlumata görə, Azərbaycanda dörd milyona yaxın uşaq əhalisi vardır. Bu sayda uşaqların pulsuz hər il tibbi müayinəyə cəlb olunması dövlətin mütərəqqiliyini əks etdirir, eyni zamanda, xəstəliklərin erkən diaqnostikası və adekvat müalicə prinsiplərinə optimal yol açır, həm də xəstələnmə və ölüm səviyyəsinin azalmasına gətirib çıxaracaqdır. Əlbəttə ki, ölkəmizdə görülən bu tədbirlər zaman keçdikcə ölkə prezidentinin qeyd etdiyi kimi, dünyada "Səhiyyənin Azərbaycan standartı"nın reallaşmasına gətirəcəkdir. Şübhəsiz, Səhiyyə Nazirliyində bütün verilən əmrlərin icrası və yerlərdə tətbiqi nəzarətdə saxlanılır.

Uşaq tibb müəssisələrinin fəaliyyətində keyfiyyətin yaxşılaşdırılması üçün mütəmadi olaraq müvafiq tədbirlər görülür, o cümlədən antenatal qulluq gücləndirilir. Bu məsələyə elmi-təşkilati, elmi-metodik yanaşma sistemi işlənib hazırlanır.

Beləliklə, ardıcıl surətdə həyata keçirilən kompleks tədbirlər uşaqların sağlamlıq vəziyyətinin mühafizəsinə, uşaqlar arasında xəstələnmənin qarşısının alınması və ölüm səviyyəsinin azalmasına zəmin yaradır. Eyni zamanda, dövlətin uşaqların sağlamlığının qorunmasına göstərdiyi qayğı və diqqəti əks etdirir.

Respublikada uşaqların sağlamlığının mühafizəsi sahəsində Heydər Əliyev Fondunun xüsusi rolunu qeyd etmək lazımdır. Məhz Fondun yardımı hesabına uşaqlarda rast gələn anadangəlmə ürək qüsurları, irsi qan xəstəliklərinin diaqnostikası, müalicəsi və cərrahi korreksiyası, eləcə də profilaktikası istiqamətində uğurlar əldə edilmişdir. Yeni yaradılmış uşaq kardiocərrahiyyəsi, stasionar xidmət sahələri müasir səhiyyədə ən yeni tibbi cihazlarla təchiz olunmuşdur.

Azərbaycanda uşaqlara tibbi xidmətin yaxşılaşdırılması və inkişafı istiqamətlərindən biri də yüksəkixtisaslı mütəxəssis kadrların hazırlanması və tibb təhsilinin təkmilləşdirilməsindən ibarətdir. Bu gün bu məsələlər bir neçə istiqamətdə müvəffəqiyyətlə həyata keçirilir.

Uşaqların sağlamlığını qoruyaq, onlara sağlam həyat bəxş edək!

Bu, hər bir pediatr-həkimin məsuliyyətli və müqəddəs vəzifə borcu və valideynlərin haqq yolu olsun!

**Hacıyeva N.A.,**
**ATU, II Uşaq xəstəlikləri kafedrası**

# KİVDF Həmrəylik günü və Yeni il münasibətilə yeni müsabiqə elan edib

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu 31 dekabr - Dünya azərbaycanlılarının həmrəyliyi günü və Yeni il münasibətilə fərdi jurnalist yazıları müsabiqəsi elan edir. "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası" ilə müəyyən edilmiş dövlət dəstəyinin prioritet sahələrinə uyğun olaraq fərdi jurnalist yazıları 19 istiqamət üzrə qəbul olunur. Mövcud istiqamətlər, müsabiqədə iştirak, təqdim olunan yazılara aid tələblər, yazıların qəbulu qaydaları, tələb olunan sənədlər, qiymətləndirmə və mükafatlandırma haqqında daha ətraflı məlumatla http://kivdf.gov.az/news/432/.../ linki vasitəsilə tanış ola bilərsiniz.

# Bakıda turizm sahəsində ilk dəfə Startup yarışı keçiriləcək




Bakıda "Asan xidmət"in İnnoland İnnovasiyalar və "Next Step" İnnovasiyalar Mərkəzinin təşkilati dəstəyi ilə "Startup Weekend" adlı travel yarışı keçiriləcək.
Bu barədə "Next Step" İnnovasiyalar Mərkəzinin direktoru Rəşad Eyvazov məlumat verib. Onun sözlərinə görə, noyabrın 16-da başlanacaq tədbirə noyabrın 18-də yekun vurulacaq. "Ölkəmizdə startup ekosistemi addım-addım inkişaf etməkdədir və bu prosesə qoşulan gənclərin sayının artması zəruridir. Tədbir çərçivəsində innovativ texnologiyalara əsaslanan ideyalar ilə səyahət sahəsində marağı olan gənclər, marketerler, dizaynerlər və proqramçılar komanda şəklində bir araya gələrək startuplar yaradacaq və münsiflər heyəti qarşısında təqdimat edəcəklər. Yarışın qalibi olan ideya isə keçiriləcək böyük finalda iştirak etmək şansı qazanacaq. Qalib komandanı mütəxəssislərdən ibarət münsiflər heyəti seçəcək. İştirakçılar üç gün ərzində mentorlardan biznes məsləhətləri və tövsiyələri də dinliyə biləcəklər", - deyə Rəşad Eyvazov bildirib.
Qeyd edək ki, yarış ölkəmizdə "Azerbaijan Tourism Board", "Paşa Travel" və "Coca-Cola Bottlers" LTD şirkətinin dəstəyi ilə reallaşacaq.




# Dünyanın ən sürətli qapıçısı Bakıya gəlir

"Robokiper"ə qol vura bilənləri Azercell-dən hədiyyə gözləyir.
Sevindirici haldır ki, Azərbaycan dünyanın ən son texnoloji yeniliklərinin nümayiş olunduğu məkana çevrilib. Məşhur "Robot Sofiya"dan sonra Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin dəstəyilə dünyanın ən sürətli qapıçısı "Robokiper" ölkəmizə gətiriləcək.
"Robokiper" cari ilin dekabr ayının 4-7-də "Azercell Telekom MMC"-nin baş sponsorluğu ilə baş tutacaq "Bakutel-2018" 24-cü Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar sərgi və konfransında təqdim olunacaq.
"Robokiper" dünyanın ən bacarıqlı və sürətli qapıçısı hesab edilir. Alman alimlərinin bu ixtirası ultra-modern və unikal texnologiyaya əsaslanır. Buna görə də "Robokiper"ə qol vurmaq demək olar ki, mümkün deyil. Topa nə qədər sürətlə zərbə vurulsa da, "ağıllı qapıçı" həmin topu geri qaytarır, qapıdan keçməsinə imkan vermir. Mürəkkəb texnologiya qapıçının zərbəyə dərhal reaksiya verməsinə imkan yaradır. Dünyanın ən məşhur futbol komandalarının üzvləri "ağıllı qapıçı" ilə duelə çıxıb uduzublar. Hətta Messi, Neymar, Ronaldinyo kimi futbol ulduzları da "Robokiper"ə qol vura bilməyiblər.
İndi isə Azərbaycan klublarının tanınmış futbolçuları "Robokiper"ə qol vurmağa çalışacaqlar. Azərbaycan milli komandasının və "Qarabağ" klubunun baş məşqçisi Qurban Qurbanov, həmçinin "Bakutel 2018" sərgi-konfransının açılışına dəvət olunan digər futbolçular "Robokiper"lə yarışacaqlar.
Azərbaycanlı futbolçularla yanaşı, sərginin iştirakçılarına da "Robokiper"lə yarışmaq təklif olunacaq. "Bakutel 2018" sərgisinin qonaqları və iştirakçıları bu bacarıqlı qapıçıya top vurmaqla güclərini sınaya bilərlər.
Sərgi zamanı "Robokiper"ə qalib gələnlər isə hədiyyə qazanacaqlar. Sərginin baş sponsoru Azercell şirkəti hər qol vuran oyun iştirakçısına 10 AZN dəyərində danışıq kartı və digər hədiyyələr təqdim edəcək.
Bu maraqlı əyləncədə hər kəs – qadın və uşaqlar da daxil olmaqla istənilən şəxs iştirak edə bilər. "Robokiper"lə yarışmaq üçün əsl futbol oyununda olduğu kimi, topa yaxınlaşıb penalti vurmaq lazımdır. Top vuran şəxsin peşəkar idmançı, yaxud həvəskar olmasının fərqi yoxdur. Dünyada cəmi 10 nüsxədə mövcud olan "Robokiper" hər yerdə maraqla qarşılanır, insanlar "ağıllı qapıçı"ya qalib gəlmək üçün növbəyə dayanırlar.
Xatırladaq ki, gələn il mayın 29-da Olimpiya stadionunda UEFA Avropa Liqasının final matçı keçiriləcək. Məhz bu ərəfədə "Robokiper" texnologiyasının Bakıda nümayiş olunması gənclər arasında idmana, xüsusilə də futbola marağın artırılması məqsədinə xidmət edəcək.




Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə Azərbaycan Rəssamlıq Akademiyasının rektoru, respublikanın xalq rəssamı Ömər Eldarova yoldaşı
**ERNA XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlıya anası
**SÜSƏN XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Dizayner:
Lamiyə NƏBİYEVA

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500